# Yeni şeirlər



■ Sevinc Elsevər

## SEVGİ

birinci sinif dərsliyindən
Hüseyn Arifin
"çox mehribandı anam" - sözləriylə başlayan şeirini
əzbərlədir oğluna ana
gah qışqırır
əzbərləməkdə çətinlik çəkən uşağa
gah çimdikləyir qolundan
"çox mehribandı anam" kəlmələrini
dilə gətirir uşaq zorla
gözləri dola-dola
heç nəyin fərqində deyil ana

oxumağını
ancaq beş almağını
böyük adam olmağını istəyir oğlunun
belə yaralayır körpəsini
sevgisi onun
amma sevgilər zərər verməməli
ovutmalı
gözləri doldurmamalı
ürəyə qəm salmamalı
sevgilər bir az da böyük olmalı
sevdiyindən oğlunu incidən ananın sevgisindən
daha böyük
məsələn...

## SİÇANLAR VƏ ADAMLAR

dili adət elədiyindən
"xeyirli olsun!" deyə xeyir-dua verir
siçan tələsi satdığı müştərisinə
xırdavat satıcısı
qəribə hisslər keçirir alıcı
insan üçün xeyirli nə varsa
özgə canlıların zərərinə
sülh içində
bir-birinə dəyib-dolaşmadan da yaşamaq olardı
zərər vermədən bir-birinə
adam kitabxanasını siçandan qorumalıydı
xeyirbilməz siçanın gəmirdiyi kitabların hamısı
heyvanlara qarşı rəhmli olmağa çağırırdı

* * *

həyətdəki çiçəklərimə
ağız uzatdı
qurbanlıq üçün alınan quzu
çiçəklərimin başı üstündən
tələsla uzaqlaşdırdım onu
ertəsi gün quzunu xatırladım
həyətdəki qara muncuqlarını süpürdükcə
bəlkə də gözəl çiçəkləri
son dəfə qoxulamaq istəyirdi
deyə peşmanladım...

## AZAD QADIN HEYKƏLİNƏ

yağış tökür göydən
Cəlil Cavanşirin kitab təqdimatına tələsirəm
"Azad qadın" heykəlinin yanına çatanda
paltomun başlığını atıram kürəyimə ehtiramla
saçlarımı yağışa öpdürürəm
çadrasını başından əbədilik çıxartmış o qadın kimi

özümü gizləyərək
hətta yağışa, soyuğa qarşı olsa belə
bürünərək
ötməyə ürəyim gəlmir
bu məğrur və şax dayanan qadının yanından.

## TƏNHA QADIN RƏSMİNƏ

qədim Şəki şəhərində
gənc bir rəssam
köhnə qala divarlarına söykəyərək satırdı
əlinin, gözünün, ürəyinin əməyini
şərab içib
dərd çəkən
tənha qadının rəsmini bəyənirdi ziyarətçilərin çoxu
amma çiçəyin, böcəyin,
buludun, günəşin rəsmini alıb aparırdılar
evlərinin divarından asmağa
qadının tənhalığına yoluxmaq qorxusu vardı adamlarda
rəsmini belə tənhalarda buraxırdılar
hələ ki kimsə
evinin qapısını açmaq
xoşbəxt ailəsinin üzvü eləmək istəmirdi tənha qadını
qırmızı şərab içməyi də ayrı bir günahdı
qədim Şərq şəhərində
kürəyini söykədiyi divarlar
soyuqdu necə
ona zillənən bir çox bəbək kimi

o qadınla tanış olduğum vaxtdan
il yarım ötəndən sonra
yadıma düşür tez-tez
evimin divarında doğan günəş
qaranlıqlardakı o qadını xatırladır
və anlayıram kədərlə
əslində
o qadın divara söykənməmişdi
divara qısnanmışdı o qadın.

## YENİ İL YOLKASI

yaxınlaşmaqda olan
yeni ili
sevinc içində qarşılamasa da
adət üzrə yolka qurur
evin bir küncündə
təcavüzə uğramış
adı bədnam olmuş qızcığaz
rəngli işıqlar yanıb-sönür yolkanın üstündə
indi gənc qızcığaz özü də
gözlərini qırpa-qırpa qalıb
o zəif işıqlar kimi
indi onun ümidləri də gah işarır
gah sönür beləcə

## ALBALI AĞACININ QIŞ YUXUSU

dərin qış yuxusundadı albalı ağacı
gövdəsini silkələyərək oyatmağa çalışır onu
burnu qıpqırmızı bir uşaq
qımıldanır cavan albalı
qar topaları düşür uşağın üz-gözünə budaqlarından
bir anlıq ağacın yuxusuna girir uşaq
qıpqırmızı albalılar dərir budağından
körpə əllər...

## NƏLBƏKİ VƏ FİNCAN

çoxdan çiliklənmiş
izi-tozu belə qalmamış fincanın
nəlbəkisi kimi tənhadı
yaşlıdı
köhnədi
qarısı ölmüş qoca
təsadüfən çıxır aralığa
köhnə fincanı xatırladan nəlbəki ömrünü sürür
rəflərin qaranlıq diblərində
bir gün çiliklənəcək o da
ürəyində gizli bir çat da var
fincan da həmişəlik unudulacaq onda
bir zamanlar qoşaydılar
bir-birinə yaraşıqdılar...

* * *

kədərlənirəm
evimdəki əşyaların tozunu alarkən
zərrə-zərrə qonur
toz dənəcikləri
əşyaların üzərinə
zamanın öz əli kimi toxunur
hər şeyə
sənsə bir əl həmləsiylə silirsən
bir həftənin
ya bir bütöv ayın
ən son izlərini itirirsən
çünki səni qorxudur zaman
görmək istəmirsən zamanın çəkdiyi rəsmləri

Kaspi.-2019.-2-4 mart.-S..20.